# “Suraxanı” gəmi-muzeyi “Xəzərin irsi”ni dünyaya təqdim edib

## *Layihə beynəlxalq mükafata layiq görülüb*




**Bugünlərdə Beynəlxalq Muzeylər Şurasının (ICOM) təsis etdiyi “Muzeylərdə Dayanıqlı İnkişaf Təcrübəsi üzrə ICOM Mükafatı”nın geniş siyahısı açıqlanıb. Sıralamada ölkəmizin “Suraxanı” gəmi-muzeyinin təqdim etdiyi “Xəzərin irsi” layihəsi də yer alıb. Bu barədə “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti (ASCO) məlumat yayıb.**

Bildirilib ki, ICOM-un 2024-cü ildə elan etdiyi müsabiqəyə, ümumilikdə, 124 ölkədən müraciət daxil olub. Münsiflər heyəti layihələr arasından ilkin seçim edərək 60 ölkənin 130 layihəsindən ibarət uzun siyahı formalaşdırıb. Növbəti mərhələdə bu layihələr qiymətləndirilərək qısa siyahı müəyyənləşdiriləcək, yekunda isə 3 finalçı seçiləcək. Qaliblər 2025-ci ilin dekabrında Dubayda ICOM-un Baş Konfransında elan olunacaq. Layihələr beynəlxalq münsiflər heyəti tərəfindən “2030 Gündəliyi” və Dayanıqlı İnkişaf Məqsədlərinin beş əsas istiqaməti (İnsanlar, Planet, Firavanlıq, Sülh və Tərəfdaşlıq) üzrə qiymətləndirilir.

Qeyd edək ki, “ICOM Mükafatı” muzey sahəsində dayanıqlı inkişaf istiqamətində innovativ təşəbbüsləri və nümunəvi təcrübələri tanıyan ilk qlobal mükafatdır. Bu mükafat ICOM-un bütün üzvlərinə ünvanladığı ilk beynəlxalq mükafat kimi xüsusi əhəmiyyət kəsb edir. Dünyanın ilk tanker muzeyi “ICOM Mükafatı”-na 2023-cü ildə “Heydər Əliyev İli” və “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi”nin 165 illik yubileyi ilə əlaqədar sərgi olaraq həyata keçirilmiş “Xəzərin irsi”, eləcə də bu layihə çərçivəsində ötən il – “Yaşıl Dünya Naminə Həmrəylik İli” və “COP 29”-a həsr olunmuş “Daha az plastik, daha çox həyat:təmiz dəniz üçün birlikdə!” devizi ilə reallaşdırılmış “Art Plast” layihəsi ilə müraciət edib.

ASCO-nun məlumatına əsasən, “Xəzərin irsi” sərgisində dənizin dibindən çıxarılmış qədim eksponatlar, sualtı arxeoloji qrupun dalğıc avadanlığı və ləvazimatları nümayiş olunub. Eyni zamanda, ziyarətçilər Azərbaycanın su altında qalmış şəhərləri, batmış orta əsr gəmiləri, zəngin mədəniyyəti və çoxşaxəli ticarət əlaqələri haqqında məlumat əldə edə biliblər.

“Art Plast” layihəsi çərçivəsində isə plastik, metal və digər məişət tullantılarından istifadə olunaraq 5 metr uzunluğa malik balıq, eyni zamanda, hər birinin hündürlüyü, təxminən, 2 metrdən çox olan qağayı, suiti və dəniz atı formasında hazırlanmış installyasiyalar, plastik qablardan düzəldilmiş 4 metr uzunluğu olan dünya xəritəsi installyasiyası, eləcə də istismar müddətini başa vurmuş qayıqlardan güldanlar düzəldilərək “Suraxanı” gəmi-muzeyinin qarşısında yerləşdirilib. Bu “eko-art”lar ətraf mühiti təmiz saxlamağın əhəmiyyətinə, plastik çirklənməsinin ekosistem üçün təhlükələrinə, xüsusilə dəniz canlılarının qorunmasının vacibliyinə diqqət çəkməklə yanaşı, tullantıların istifadəyə yararlı məhsullara çevrilməsinin, hətta onlardan sənət əsərləri yaratmağın mümkünlüyünü əyani formada nümayiş etdirir.

Xalq qəzeti .- 2025.- 19 avqust (№173).- S.8.